# Tovuz: inkişaf yolunda





**Tovuz Rayon Mədəniyyət Mərkəzində "Tovuz rayonunda 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə" geniş Şura iclası keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər. Hesabat yığıncağına dəvət olunanlar Mədəniyyət Mərkəzinin foyesində 2019-cu ildə görülmüş işlərə dair hazırlanmış fotostendlərlə tanış olmuş, Tovuz rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı təqdim edilən videoçarxı izləmişlər.**

Hesabat yığıncağında **Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov** məruzə ilə çıxış etmişdir. Məruzədə qeyd edilmişdir ki, yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə və fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ölkə Prezidenti geniş məzmunlu nitqlərlə çıxış etmiş, 2019-cu ildə ölkəmizdə görülən işləri ətraflı təhlil etmiş və növbəti mərhələdə qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Dövlətimizin başçısı əminliyini ifadə etmişdir ki, 2020-ci ildə Azərbaycan uğurla inkişaf edəcək və daha güclü dövlətə çevriləcəkdir.

2019-cu il Tovuz rayonu üçün də uğurlu bir il olmuşdur. Ötən il rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 11,6 faiz artaraq 482 milyon 246 min manat təşkil etmişdir. Bunun 66 faizi istehsal, 34 faizi isə xidmət sahələrinin payına düşür. Əvvəlki illə müqayisədə sənayedə 6,7 faiz, kənd təsərrüfatında 10,0 faiz, tikintidə 37,6 faiz, nəqliyyatda 26,6 faiz, rabitədə 13,3 faiz, ticarətdə 2,9 faiz artım olmuşdur. 2019-cu ilin yanvar-dekabr aylarında sənaye xarakterli xidmətlərin həcmi 16 milyon 880 min manat təşkil etmiş və 2018-ci illə müqayisədə 6,7 faiz çoxalmışdır. Hesabat dövründə büdcə gəlirləri 10 milyon 338 min manat proqnoza qarşı 14 milyon 288 min manat olmuşdur.

Rayon iqtisadiyyatının 45,6 faizini kənd təsərrüfatı təşkil edir. Hesabat dövründə rayon üzrə 220 milyon 49 min manat dəyərində 385 min 113 ton kənd təsərrüfatı məhsulları, o cümlədən 50 min 52 ton dənli bitkilər istehsal olunmuşdur. Dənli bitkilərin məhsuldarlığı keçən illə müqayisədə 0,3 faiz artaraq 32,4 sentner, o cümlədən buğdanın məhsuldarlığı 33 sentner olmuşdur. Ötən il rayonda 158 min 706 ton kartof istehsal olunmuşdur. Məhsuldarlıq 33,5 sentner artaraq 250,5 sentnerə yüksəlmişdir. Artıq kartofçuluqla məşğul olan iri fermer təsərrüfatları meydana gəlir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun istehsal olunan məhsulun saxlanılması və uyğun vaxtlarda realizasiya olunması məqsədilə 22 min 500 ton tutumu olan soyuducu anbar kompleksinin tikintisinə başlanmışdır. Logistik mərkəz kimi fəaliyyət göstərəcək bu obyektin tikintisi regionda kartofçuluğun inkişafına əhəmiyyətli təsir göstərəcəkdir. Bu mövsümdə fermerlər 38,4 hektar istixanalarda 3072 ton məhsul yetişdirmişlər. Məhsul satışından 4 milyon 100 min manat gəlir əldə olunmuşdur.

Eyni zamanda 1329 hektar tərəvəz əkini sahəsindən 28 min 475 ton məhsul götürülmüşdür. O cümlədən 10270 ton yerkökü istehsalından fermerlər 3 milyon 629 min manat gəlir əldə etmişlər. Hesabat ilində 20 hektar sahədə yeni üzüm bağları salınmış və bununla da üzümlüklərin ümumi sahəsi 745 hektara çatdırılmışdır. Mövsüm ərzində rayonda 16 min 283 ton məhsul istehsal olunmuşdur. Ötən illə müqayisədə məhsuldarlıq 44 sentner artaraq 245,6 sentnerə çatmışdır. Müvafiq Dövlət Proqramına uyğun bu sahədə aparılan işlər davam etdirilir. Aşağı Quşçu kəndində 3 min tonluq üzüm emalı müəssisəsi yaradılmışdır. Keçən il müəssisə ilk dəfə olaraq fermerlərdən münasib qiymətlərlə məhsul qəbul etmişdir. Müəssisədə müasir texnologiyalar əsasında alkoqollu içkilərin istehsalı, süzülərək qablaşdırılması, hazır məhsul şəklində bazarlara çıxarılması planlaşdırılır.

Ötən il rayon iqtisadiyyatına 91 milyon 248 min manat sərmayə qoyulmuşdur. Cəlb olunmuş investisiyanın həcmi 46,9 faiz artmışdır. Rayonda ötən il 2981 yeni iş yeri açılmışdır ki, bundan 1390-ı daimi işlərdir. O cümlədən, 557 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Bu layihə cari ildə də davam etdirilir.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun ötən il rayonda kağız və karton tara istehsalı müəssisəsi tikilmiş və Düz Cırdaxan kəndi ərazisində 3 min tonluq soyuducu anbar kompleksi genişləndirilmişdir. Eyni zamanda proqramda nəzərdə tutulan yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri işləri davam etdirilmişdir. Bundan əlavə, Aşağı Quşçu kəndində Heydər Əliyev Fondunun dəstəyi ilə 2,3 kilometr uzunluğunda kəndarası yol asfaltlanmışdır.

2019-cu il ərzində rayonda müxtəlif istiqamətlərdə aparılan tikinti-quruculuq və abadlıq işləri davam etdirilmişdir.

Hesabatda ekoloji tarazlığın qorunması sahəsində müəyyən işlər görüldüyü, "Nəsimi ili" çərçivəsində yaşayış məntəqələri ərazisində 10 min ədəddən artıq müxtəlif növ ağac, yol kənarlarında isə 4200 ədəd həmişəyaşıl ağac və kollar əkildiyi, ictimai yerlərdə səliqə-sahman yaradıldığı qeyd olunmuşdur.

Məruzə ətrafında "Tovuz Aqro" MMC-nin direktoru Şadkamal Hüseynov, rayon maliyyə idarəsinin rəisi Mübariz Salmanov, sahibkar Elqam Tağıyev, könüllü Tamam Səlimova və b. çıxış etmişlər.

Hesabat yığıncağında "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2019-cu il tarixli Sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuş Tovuz rayonunun Aşağı Quşçu kənd sakini, üzümçü-sahibkar Tağıyev Elqam Qənbər oğluna 3-cü dərəcəli "Əmək" ordeni və vəsiqə təqdim olunmuşdur.

Sonda hesabat yığıncağının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Vəli VƏLİYEV,**
**"Respublika".**